■ Osman Fermanoğlu

## Şairlər Günü

Mən şeir yazmağa ağdan basladım,
Yolu yumaqladım süd işığında.
Yaxşıya dil verdim, pisi daşladım,
Duruldum sözlərin yaraşığında.

Elə düşündüm ki, varlığımız söz
Hamını qaldırıb yuxarı çəkir.
Bilmədim  ocaqlar yansa da köz köz,
Acı tüstüsünü buxarı çəkir.

Dörd yanda çoxalır calaq vuranlar,
Qoca Füzuliyə yüz calaq vurur.
Sözləri üyüdüb könül qıranlar
Sözün sultanına badalaq vurur.

Sürüdüm bir omrü ağrı içində,
Gördüm sözsüz kəslər məndən öndədir.
Amma duymurlar ki, kəsilən kündə
Təndirdə küt gedən boyat kündədir.

Mən şeir yazmağa ağdan başladım,
Alnıma kəlmələr qara yazıldı.
Dilimi ən sərrast sözə tuşladim,
Gördüm ağ vərəqdə qara yazıdı.